1_Layout 1 13.07.2022 16:04 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 14 (628)

15 iyul
2022-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# Brüssel gündəliyini qalib Azərbaycanın maraqları müəyyən edir

**“Azərbaycan” qəzetinin müxbiri Rəşad Cəfərlinin müəllifi olduğu “Brüssel gündəliyini qalib Azərbaycanın maraqları müəyyən edir” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**



İyulun 4-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə Azərbaycan Prezidenti İlham Əliyev arasında telefon danışığı olub. Söhbət zamanı Brüssel gündəliyinə aid məsələlər müzakirə edilib. İlham Əliyev Şarl Mişelin təşəbbüsü və iştirakı ilə keçirilmiş üçtərəfli görüşləri, bu çərçivədə əldə olunmuş razılaşmaları qeyd edərək, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində danışıqların real nəticələrə gətirib çıxaracağına ümidvar olduğunu bildirib.

### Avropa İttifaqının təşəbbüsləri Azərbaycanın mövqeyi ilə uzlaşır

Şarl Mişelin zəngi, ilk növbədə, onun Aİ Şurasının prezidenti kimi Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə bağlı siyasi iradəsinin təcəssümüdür. Məhz Aİ Şurası prezidentinin təşəbbüsü və vasitəçiliyi ilə ötən ilin dekabrından Brüsseldə keçirilən üçtərəfli görüşlərdə münasibətlərin normallaşdırılması istiqamətində vacib razılaşmalar əldə olunub. “Brüssel prosesi” adını alan bu görüşlər Aİ-nin dəstəyi və təşəbbüsləri ilə Azərbaycanla Ermənistan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm və format yaradılması deməkdir. Bu isə hələ İkinci Qarabağ müharibəsinə qədər mövcud olmuş, Azərbaycanın qələbəsindən sonra isə fəaliyyətinə lüzum qalmayan Minsk qrupu ilə müqayisədə obyektiv və işlək formatdır. Belə ki, Şarl Mişelin iki dövlət arasındakı münasibətlərin normallaşdırılması istiqamətində təşəbbüsləri, bütövlükdə prosesə dəstəyi tamamilə tərəfsizdir. Bu baxımdan onun mövqeyi bir vaxtlar Minsk qrupunun həmsədrlərinin ortaya qoyduqları mövqedən tamamilə fərqlənir və real nəticənin əldə olunmasına hesablanıb.

Brüssel gündəliyinin əsas məqamlarından biri Aİ-nin Vətən müharibəsindən sonra yaranmış yeni reallıqları qəbul etməsidir. Bu mənada Brüssel formatında aparılan müzakirələrdə Avropa İttifaqının ortaya qoyduğu mövqe də Azərbaycanın regionda təhlükəsizliyin və rifahın təmin edilməsinə hesablanmış təşəbbüsləri ilə uzlaşır. Aİ də hesab edir ki, artıq gələcəyə baxmaq, yeni reallıqlar çərçivəsində münasibətləri normallaşdırmaq lazımdır. Digər tərəfdən Aİ Şurasının prezidenti heç vaxt “Dağlıq Qarabağ münaqişəsi”, “status” kimi ifadələri işlətmir, Minsk qrupunun adını çəkmir. Bu fakt da göstərir ki, Aİ Azərbaycanın yaratdığı yeni reallıqları qəbul edir.

### Ermənistan köhnə taktikasına qayıtsa, peşman olacaq

Xatırladaq ki, may ayında Brüsseldə keçirilən növbəti üçtərəfli görüşdə razılaşdırılan bütün məsələlər bir daha prosesin Azərbaycanın milli maraq və mənafelərinə uyğun getdiyini göstərdi. Belə ki, görüşdə Ermənistanın hələ 10 noyabr Bəyanatında üzərinə götürdüyü öhdəliyə uyğun olaraq, kommunikasiya ilə əlaqədar nəqliyyat əlaqələrinin açılması istiqamətində işlərin davam etdirilməsi zərurətindən bəhs olunub. Tərəflər Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında tranzitləri, habelə hər iki ölkənin kommunikasiya infrastrukturu vasitəsilə beynəlxalq nəqliyyat daşımalarını tənzimləyəcək prinsiplər üzərində razılığa gəliblər.

“Brüssel prosesi” çərçivəsində danışıqların əsas istiqamətini sərhədlərin delimitasiyası təşkil edir. Bu məsələdə əldə edilmiş razılaşmaların həyata keçirilməsi çərçivəsində dövlət sərhədində Azərbaycanla Ermənistan arasında sərhədin delimitasiyası üzrə komissiya formatında görüş də keçirilib. Görüşdə tərəflər delimitasiya və digər məsələlər üzrə komissiya çərçivəsində işləməyə hazır olduqlarını təsdiq ediblər. Prezident İlham Əliyev bir neçə gün əvvəl Kəlbəcər rayonundan bununla bağlı Ermənistana xəbərdarlıq edərək deyib: “Əgər Ermənistan sərhədlərin müəyyən edilməsi işində yenə də öz köhnə taktikasına qapılsa, vaxt uzatmağa çalışsa, nəticədə özü peşman olacaq”.

### İndi Minsk qrupunun dövranı deyil

Əldə olunan razılıqlardan biri də dövlətlərarası münasibətləri tənzimləyən gələcək sülh müqaviləsinə dair müzakirələrin aparılmasıdır. Lakin sülhün əldə edilməsi üçün Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməlidir. 10 noyabr üçtərəfli Bəyanatına əsasən, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsi təmin olunmalı idi. Ermənistan tərəfindən kapitulyasiya aktının imzalanmasından ilyarımdan çox vaxt ötsə də, bu öhdəlik yerinə yetirilməyib. Bu, Ermənistan tərəfindən üçtərəfli Bəyanatın müddəalarının pozulmasıdır və Prezident İlham Əliyevin IX Qlobal Bakı Forumunda qeyd etdiyi kimi, əgər bizə bu əlaqə yolu təqdim edilməyəcəksə, sülh haqqında danışmaq çətin olacaq.

Nəticələri beynəlxalq ictimaiyyət tərəfindən də qəbul olunan 44 günlük müharibənin qalibi kimi Azərbaycanın məqsədi bölgədə sülhün təmin olunmasıdır. Bu istiqamətdə müzakirələrdən boyun qaçırması, öhdəliklərini yerinə yetirməməsi, üçtərəfli razılaşmaların tələb etdiyi prosesləri ləngitməsi İrəvanın sülh prosesinə destruktiv yanaşması olacaq. Amma indi Minsk qrupunun dövranı deyil və Aİ-nin vasitəçiliyi ilə aparılan danışıqlar Ermənistana verilən son şansdır. Əks təqdirdə itirən yenə Ermənistan olacaq.

# AZƏRBAYCAN POLİSİNİN XİDMƏTİ DÖVLƏTƏ VƏ XALQA SƏDAQƏTİN NÜMUNƏSİDİR



Azərbaycan Polisinin yaranmasının 104-cü ildönümü münasibətilə Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov başda olmaqla nazirliyin rəhbər heyəti Fəxri xiyabana gələrək Ulu Öndər Heydər Əliyevin abidə kompleksi önünə tər çiçək dəstələri düzüblər. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi ehtiramla yad edilib.

Sonra respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər xiyabanı ziyarət olunub.

İyulun 2-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Azərbaycan Polisi Gününə və 2021-2022-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib. Respublikanın Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tədbirdə iştirak edib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmış, xidməti borcu yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Əlamətdar gün münasibətilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, zati-alilərinin təbriklərini və ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov ötən 104 ildə polisin keçdiyi çətin sınaqlarla dolu şərəfli və zəngin xidmət yolu, cinayətkarlığa qarşı mübarizədə qazandığı təcrübə, dəyərli ənənələri, xüsusən Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, milli ruha malik vətənpərvər kadrlarla möhkəmlənməsi istiqamətində görülən işlərdən danışıb. Nazir Birinci Qarabağ müharibəsində torpaqlarımızın müdafiəsi üçün döyüşlərə atılan polisin öz missiyasını mərdliklə yerinə yetirdiyini, müstəqilliyin yenicə bərpa edildiyi illərdə ölkəmizdə hökm sürən anarxiyanın ağır nəticələrinin aradan qaldırılmasında, respublikada daxili sabitliyin təmin edilməsində və hüquq qaydasının möhkəmləndirilməsində önəmli xidmətlər göstərdiyini diqqətə çatdırıb. Bildirib ki, indiyədək qanunla müəyyən edilmiş vəzifələri yerinə yetirərkən daxili işlər orqanlarının və Daxili Qoşunların 114 əməkdaşı və hərbi qulluqçusu həlak olub, 2792 nəfər xəsarət alıb.

Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Daxili İşlər Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə görülən işlərin nəticəsi olaraq müasir maddi-texniki bazaya, infrastruktura və qabaqcıl texnologiyaya malik daxili işlər orqanlarının fəaliyyətinin vətəndaş məmnunluğunun təmin edilməsinə yönəldiyini vurğulayan general-polkovnik V.Eyvazov şəxsi heyətin peşə hazırlığının zamanın yeni təhdid və çağırışlarına cavab verən səviyyəyə yüksəldiyini və bu sahədə ardıcıl iş aparıldığını qeyd edib.

Həmçinin, bildirib ki, son 19 ildə 23 mindən çox cinayətkar qrup və dəstə zərərsizləşdirilib, əllərdə qanunsuz saxlanılan 18 minə yaxın odlu silah yığılıb və onun tətbiqilə törədilən hüquqazidd əməllərin sayı xeyli azalıb. Cinayətlərin orta hesabla 84 faizinin açılması təmin olunub, axtarışda olan 62 mindən çox təqsirləndirilən şəxs tutulub, qanunsuz dövriyyədən 17 tona yaxın narkotik vasitə çıxarılıb. Respublikada əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı bu gün də əksər dünya ölkəsi ilə müqayisədə xeyli azdır.



O da qeyd olunub ki, pandemiya səbəbindən yaranmış müəyyən fasilədən sonra Azərbaycan yenidən beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi edir, aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əlaqədə ölkəmizdə, o cümlədən, mədəniyyət paytaxtı olan Şuşa şəhərində keçirilən kütləvi və beynəlxalq tədbirlər zamanı ictimai qayda və təhlükəsizlik təmin edilib.



Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında möhtəşəm qələbəmizlə nəticələnmiş Vətən müharibəsindən sonra regionda yeni reallıqların yaranmasına diqqət çəkən nazir V.Eyvazov “Böyük qayıdış”ın ilk addımlarının atıldığını, belə bir taleyüklü dönəmdə polis orqanlarının fəaliyyətinin də yaranmış vəziyyətə uyğunlaşdırıldığını, strateji və həyat əhəmiyyətli obyektlərin mühafizəsinin, bütövlükdə asayişin və təhlükəsizliyin etibarlı təmin edildiyini bildirib. Polis və Daxili Qoşunların işğaldan azad olunmuş ərazilərdə öz şərəfli xidmətini böyük əzm və peşəkarlıqla davam etdirdiyini xüsusi qeyd edən nazir ölkə başçısının bu peşə bayramı ərəfəsində 26 əməkdaşı dövlət mükafatları ilə təltif etdiyini, 4 rəhbər vəzifəli əməkdaşa ali xüsusi rütbə verildiyini məmnunluqla xatırladaraq bunun cənab Prezidentin şəxsi heyətə göstərdiyi ali diqqət və qayğının növbəti əyani ifadəsi olduğunu, daxili işlər orqanlarının və Daxili Qoşunların asayişin və təhlükəsizliyin təmini üzrə fəaliyyətini yüksək qiymətləndirdiyini, eləcə də respublika ictimaiyyəti tərəfindən təqdir olunduğunu məmnunluq hissi ilə vurğulayıb. Daha sonra qazanılan uğurlarda Azərbaycan Polisinin müasir dünyagörüşlü yeni nəslini yetirən Polis Akademiyasının xüsusi rolunu qeyd edərək məzunları təhsili başa vurmaları münasibətilə təbrik edib.

Daxili işlər naziri Vilayət Eyvazov təntənəli mərasimin iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin edib ki, öz andına həmişə sadiq olan və dövlətçiliyin keşiyində əzmlə dayanan daxili işlər orqanları bundan sonra da Vətənə və xalqa şərəflə xidmət edəcək, bu yolda qüvvə və bacarığını əsirgəməyəcək.

Nazir xidməti vəzifələrin icrasında daxili işlər orqanlarına hər zaman yardımçı olan, polisin peşə bayramının sevincini bölüşən vətəndaşlara, daxili işlər orqanlarının veteranlarına, dövlət qurumlarının rəhbərlərinə və əməkdaşlarına, kütləvi informasiya vasitələrinin nümayəndələrinə təşəkkürünü bildirib.

Daxili işlər naziri Polis Akademiyasını fərqlənmə ilə bitirmiş məzunlara diplomları və “polis baş leytenantı” xüsusi rütbələrinin paqonlarını da təqdim edib.

Təntənəli tədbirin sonunda şəxsi heyət mətin addımlarla tribunanın qarşısından keçib.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 13.07.2022 12:28 Page 1



# Daxili Qoşunların Hərbi Şurasının videokonfrans formatında iclası keçirilib

İyulun 8-də Daxili Qoşunların Baş İdarəsində videokonfrans formatında "2022-ci ilin birinci yarımilində Daxili Qoşunların xidməti-döyüş fəaliyyətinin yekunları"na həsr olunmuş Hərbi Şuranın iclası keçirilib.

İclasda giriş sözü ilə çıxış edən Hərbi Şuranın sədri, Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov qeyd edib ki, ötən dövr ərzində Daxili Qoşunlar tərəfindən qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının icrası təmin olunmuşdur.

General-leytenant Şahin Məmmədov iclasın gündəliyini elan etdikdən sonra daxili qoşunlar komandanının 1-ci müavini-qərargah rəisi general-mayor Tofiq Hüseynov məruzə ilə çıxış edib.

Məruzədə bildirilib ki, ölkəmizin müstəqilliyinin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olan Daxili Qoşunların şəxsi heyəti 2022-ci ilin birinci yarımili ərzində ictimai təhlükəsizliyin təmin edilməsində və ictimai qaydanın qorunmasında, cinayətkarlığa qarşı mübarizədə fəal iştirak edərək, qarşıya qoyulmuş tapşırıqların icrasını tam təmin etməklə yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik olduğunu nümayiş etdirib.





Qoşunların şəxsi heyəti polis əməkdaşları ilə birgə işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyin təmin olunması, həyat təminatlı mühüm əhəmiyyətli obyektlərin mühafizəsi, terror, təxribat və digər qanunazidd fəaliyyətin qarşısının alınması, giriş-çıxışın xüsusi rejiminin tətbiq edilməsi və digər mühüm vəzifələrin yerinə yetirilməsi üzrə qarşıya qoyulmuş tapşırıqların icrası həyata keçirilib.

Həmçinin, mühüm beynəlxalq səviyyəli tədbirlər olan "Texnofest Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı, "Formula-1 Azərbaycan Qran-Pri" yarışının, o cümlədən, futbol oyunları zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması üzrə xidmətin aparılmasına cəlb edilən şəxsi heyət tərəfindən qarşıya qoyulmuş tapşırıqlar yüksək peşəkarlıqla, tam həcmdə icra edilib.

Daxili Qoşunların istehkamçıları tərəfindən işğaldan azad olunmuş ərazilərin mina və döyüş sursatı qalıqlarından təmizlənməsi üzrə qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqları uğurla yerinə yetirilib. Beynəlxalq idman tədbirləri zamanı da istehkamçıların fəaliyyəti qənaətbəxş olub.

Bundan əlavə, gündəlik xidməti fəaliyyətdə döyüş təlimi prioritet məsələ kimi qəbul edilib. Belə ki, hərbi qulluqçuların səhra təcrübəsinin artırılması, onların fərdi bacarıqlarının və birgə fəaliyyətlərinin təmini məqsədilə şəxsi heyət səhra təlimlərinə, atıcılıq məşqlərinə cəlb olunub, ixtisaslı hərbi qulluqçularla metodiki təlim toplanışları təşkil olunaraq keçirilib. Yarımil ərzində şəxsi heyətin döyüş hazırlığı mütəmadi olaraq yoxlanılıb.

Ötən müddət ərzində şəxsi heyətlə tərbiyə işi qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsinə, xəsarətalma hallarının və nizamnamədənkənar münasibətlərin qarşısının alınmasına, komandir və rəislərin şəxsi nümunəliyinin təmin olunmasına, kollektivlərdə sağlam mənəvi-psixoloji mühitin yaradılmasına, hərbi qulluqçuların ictimai-siyasi hazırlıq üzrə biliklərinin artırılmasına yönəldilib. Bu məqsədlə qoşunlarda hərbi intizamın vəziyyəti və aparılan tərbiyə işi tədbirləri nəzarətə götürülüb, bu istiqamətdə müvafiq göstəriş və tövsiyələr verilib.

Bununla yanaşı, Daxili Qoşunlarda maddi-texniki bazanın möhkəmləndirilməsi ilə bağlı tədbirlər ardıcıllıqla davam etdirilib, şəxsi heyətin kazarma-məişət şəraiti müasir standartlara uyğunlaşdırılıb, hərbi qulluqçuların zəruri tələbatları təminat normalarına uyğun təmin olunub, tələb olunan texnika və avadanlıqların alınması həyata keçirilib. Qoşunların maddi-texniki təminatının əsas istiqamətləri qarşıda duran vəzifələrin, xüsusən işğaldan azad olunmuş ərazilərdə və xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi üçün tələb olunan vasitələrlə hərbi hissələrin təmin edilməsinə yönəldilib.

Çıxışının sonunda məruzəçi Daxili Qoşunların şəxsi heyətinin bundan sonra da qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsinə həmişə hazır olacağını, hərbi hissə və bölmələrin döyüş hazırlığının daim yüksək saxlanılması, hərbi qulluqçuların peşə hazırlığının artırılması, sağlam mənəvi-psixoloji mühitin yaradılmasının təmin olunacağını bildirib.

Daha sonra bir neçə hərbi hissənin komandirinin mövcud vəziyyət, diqqətçəkən nöqsan və çatışmazlıqların yaranma səbəbləri barədə hesabat-çıxışları dinlənilib. Çıxışlar zamanı qeyd olunub ki, ümumilikdə, hərbi hissələr qarşıya qoyulmuş tapşırıqlardan irəli gələn vəzifələri tam həcmdə yerinə yetiriblər.

Müşavirəyə yekun vuran general-leytenant Ş.Məmmədov 2022-ci ilin birinci yarımilində Daxili Qoşunların xidməti-döyüş fəaliyyətini ümumən qənaətbəxş hesab edərək, hərbi hissə komandanlıqlarına tapşırıqlar verib, Daxili Qoşunların şəxsi heyətinin bundan sonra da xalqa və dövlətə sadiqliyini nümayiş etdirərək ləyaqətlə xidmət edəcəyinə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısına cavab olaraq, Daxili işlər nazirinin əmr və göstərişlərindən irəli gələn vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəyinə, polis orqanlarının əməkdaşları ilə birgə ölkədə sabitliyin və ictimai asayişin keşiyində mətinliklə dayanacağına əminliyini ifadə edib.

**Mətbuat xidməti**

# DÖYÜŞ TƏCRÜBƏSİ VƏ ƏZMKAR XİDMƏTİ İLƏ FƏRQLƏNƏN DƏSTƏ

Yarandığı gündən etibarən zəngin xidmət yolu keçərək böyük təcrübə toplayan, döyüş təlimi və xidmət səviyyəsinin artırılması istiqamətində ciddi irəliləyişlərə nail olan, erməni işğalçılarına qarşı gedən döyüş əməliyyatlarında mətinliklə iştirak edən hərbi hissələrimizdən biri də 25033 saylı hərbi hissədir. Vətən müharibəsi zamanı hərbi hissənin "Gürzə" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsi ön cəbhədə döyüşlərdə fəal iştirak edib.





Xüsusi təyinatlı dəstənin komandiri, Vətən müharibəsi iştirakçısı mayor Cavid Tağıyev respublikamızın ərazi bütövlüyünün bərpasının tabeliyindəki şəxsi heyətin illərlə ürəyində yaşatdığı, uğrunda mübarizə apardığı ən müqəddəs arzusu olduğunu dedi. Xüsusi təyinatlıların Vətən müharibəsində əldə etdikləri nailiyyətlərdən və göstərdikləri mərdlikdən söhbət açan mayor C.Tağıyev bildirdi ki, hərbçilərimizin peşəkarlığı sayəsində döyüş meydanında üstünlüyü əldə etdik, son hədəfə qədər uğurla irəlilədik.

Dəstə komandiri əlavə etdi ki, oktyabr ayının 15-dən etibarən döyüşlərə qatılan xüsusi təyinatlılar Füzuli rayonunun bir sıra kəndləri, Cəbrayıl və Şuşa şəhərləri istiqamətində aparılan hərbi əməliyyatlarda iştirak edərək, şücaət, peşəkarlıq və vətənpərvərlik nümayiş etdiriblər.

44 günlük Vətən müharibəsində xüsusi təyinatlılarımız qəhrəmanlıq nümunələri göstərərək milyonlarla insanın sevgisini, rəğbətini qazandılar. Döyüş əməliyyatları



zamanı dəstənin 7 nəfər igid hərbi qulluqçusu – kapitan Şamil Babayev, kiçik gizir Anar Məmmədov, baş çavuş Vüsal Allahyarov, çavuş Afər Orucov, baş əsgər Pərviz Həsənov, əsgərlər İsmayıl Məmmədov və Fərid Seyfullayev şəhidlik zirvəsinə ucalıb, xüsusi təyinatlılardan 31 nəfəri isə yaralanıb. Şəhid silahdaşlarımızın əziz xatirəsi xalqımızın yaddaşında əbədi yaşayacaqdır.

Dəstə komandiri xüsusi təyinatlıların göstərdikləri döyüş qabiliyyətinin onlarla keçirilən təlim və məşqlərin, təşkil olunan kursların bariz nəticəsi olduğunu söylədi. Onun sözlərinə görə, yüksək döyüş hazırlığını qoruyub saxlamaq məqsədilə şəxsi heyət mütəmadi olaraq real döyüş şəraitinə uyğunlaşdırılmış təlimlərə cəlb olunur: "Bu zaman hər bir hərbi qulluqçunun fərdi hazırlığının artırılmasına önəm verilir. Təlim və məşğələlərin müvafiq plana əsasən, müntəzəm olaraq keçirilməsi yalnız bir məqsədə - hərbi qulluqçuların peşə vərdişlərinin, o cümlədən, döyüş qabiliyyətinin daha da təkmilləşdirilməsinə xidmət edir".

Vətənin müdafiəsində hərbi qulluqçu olaraq öz borcunu şərəflə yerinə yetirən xüsusi təyinatlılarımıza uğurlar arzulayırıq.

**kapitan Xədicə Hacızadə**

# "GÖSTƏRİLƏN ETİMADI HƏR ZAMAN DOĞRULTMAQ ƏZMİNDƏYİK"

İstənilən hava şəraitində xidmətin ayıq-sayıq aparılması hərbi qulluqçudan möhkəm iradə, dözümlülük və böyük məsuliyyət tələb edir. Sadalanan bu və digər müsbət keyfiyyətləri 17074 saylı hərbi hissənin komendant bölüyünün hərbi qulluqçularının hər birində görmək olar.

Döyüş Bayrağının və hərbi obyektlərin etibarlı mühafizəsi və müdafiəsi bölüyün fəaliyyətinin əsasını təşkil edir. Bu baxımdan qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi, xidmətin düzgün təşkil edilməsi olduqca vacibdir.

Etibarlı mühafizədən danışarkən ilk olaraq vurğulamaq yerinə düşər ki, bu, qarovula cəlb olunan şəxsi heyətin ayıq-sayıqlığından və möhkəm hərbi intizamının olmasından asılıdır. Ona görə bölükdə xidmət edən şəxsi heyət bilik səviyyəsi və dünyagörüşü nəzərə alınmaqla, yüksək döyüş hazırlığına, verilən tapşırıqları dəqiq və cəld yerinə yetirmək qabiliyyətinə malik, nizam-intizamlı, nümunəvi hərbi qulluqçular arasından seçilir.

Bölük komandiri kapitan Ülvi Hüseynli söylədi ki, xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil edilir. Komandir kimi bölüyün döyüş hazırlığının yüksəldilməsi, nizam-intizamın möhkəmləndirilməsi üçün daim çalışan zabit tələbkarlığı ilə yanaşı, şəxsi heyətdən diqqət və qayğısını əsirgəmir. 2021-ci ilin iyun ayından bu vəzifədədir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur.







Kapitan Ü.Hüseynli bildirdi ki, xidmətə cəlb edilməzdən öncə bölük komandiri və onun müavinləri tərəfindən şəxsi heyətə təlimat keçirilir, hərbi nizamnamələrin müvafiq maddələri onlara çatdırılır. Ümumiyyətlə, xidmətə cəlb edilməzdən bir gün əvvəl hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Bu işdə, həmçinin, hərbi hissənin tərbiyə işləri üzrə bölməsində təlimatçı-psixoloq leytenant İlqar Xanlarzadənin də rolu var.

Komendant bölüyündə xidmətin çətin, lakin şərəfli və məsuliyyətli olduğunu diqqətə çatdıran komandir döyüş xidmətinə seçilən hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlıqlarının nəzərə alındığını bildirdi. Qeyd etdi ki, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi qulluqçular arasında yoldaşlıq münasibətlərinin qorunub saxlanılması məqsədilə tərbiyə işi tədbirləri keyfiyyətlə həyata keçirilir. O, bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Ülvi Hüseynzadənin də əməyini xüsusilə vurğuladı, onun öz üzərində daim işlədiyini, verilən tapşırıqları bacarıqla və vaxtında yerinə yetirdiyini bildirdi.

Bölük komandiri komendant bölüyünün qabaqcıl hərbi qulluqçularından çavuş Tural Mirzəyev, baş əsgər Güloğlan Məhərrəmov, əsgərlər Rəsul Mirzəyev və Yusif Atakişiyevin adlarını çəkərək, onların yoldaşlarına nümunə olduqlarını qeyd etdi.

Sonda bölük komandiri şəxsi heyətin mövcud hərbi intizamı və döyüş hazırlığını qoruyub saxlamaqla bərabər, obyektlərin etibarlı mühafizəsini təmin etmək və hissə komandanlığının etimadını hər zaman doğrultmaq əzmində olduğunu vurğuladı.

**kapitan Şahin Cəfərzadə**

Ana dilimizdə ən müqəddəs sözlərdən biri Vətəndir. Ulu babalarımızın məskən salaraq obalar qurduqları, qan tökərək toxunulmazlığını qoruduqları, xeyir-dua verərək davamçılarına əmanət etdikləri doğma torpaq Vətən adlanır. Hər bir xalqın varlığının güc mənbəyi Vətəndir. İnsan üçün Vətən torpağının suyu, çörəyi və havası qədər heç bir digər nemət cəlbedici deyil. Böyük şairimiz Əliağa Kürçaylı "Vətən" şeirində öz duyğularını belə ifadə edib:

**Mən səndən istədim açıq bir alın,**
**Sən mənə bəxş etdin əzəmət, vüqar.**
**Mən də başıaçıq, ayağı yalın**
**Yolunda can qoysam, yenə az olar.**

*Şəhidlərimiz*

# DÖYÜŞÇÜ MİSSİYASINI LƏYAQƏTLƏ YERİNƏ YETİRDİ...

Xalqımızın qeyrətli oğulları Vətən eşqindən ruhlanaraq şəhidlik zirvəsinə ucalıblar. Müqəddəs dinimizdə vurğulanıb ki, Vətəni sevmək və onun uğrunda həyatını qurban vermək imandandır. Həqiqətən də vətənpərvərlik məfhumu döyüş meydanında qalibiyyətin əsas amillərindən sayılır.

Qürurverici hərbi zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının döyüşçü missiyasını ləyaqətlə və həyatı bahasına yerinə yetirmiş şəhid hərbi qulluqçularından biri çavuş Məmmədov Elvin Tərlan oğludur. O, 1992-ci il dekabrın 12-də Biləsuvar rayonunun Xırmandalı kəndində doğulub. Tərlan Məmmədov və Sudayə Məmmədovanın üç oğul övladından yaşca ən kiçiyi idi. 1986-1987-ci illərdə anadan olmuş Emin və Rəşad adlı qardaşları var. Öz halal zəhməti ilə yaşayan, məxsi dəyərlərimizə ehtiram göstərən, el-obanın hörmətini qazanan, mehriban bir ailədə böyüyən Elvin ailəcanlı, dostluqda etibarlı, inanclı, ədəb-ərkanlı, xeyirxah gənc kimi yaddaşlarda qalıb. Atası T.Məmmədov çilingər işləyib, 2018-ci ilin aprel ayının 4-də qəfil ürək tutmasından dünyasını dəyişib. Bu ölümün sarsıntısını Elvin ömrünün sonuna kimi unutmayıb. Anası Sudayə xanıma oğul olaraq öz qayğısını əsirgəməyib.

Xırmandalı kəndində yerləşən şəhid Ceyhun Məhərrəmov adına 1 saylı tam orta məktəbin məzunu olan Elvin burada 9 il oxuyub. Sonra rayondakı peşə məktəbində təhsil alıb. Hər iki təhsil ocağında müəllimlərinə hörmətlə yanaşıb, onların aşıladıqları tərbiyə və öyrətdikləri biliklər Elvinin dünyagörüşündə silinmiz iz qoyub.

2011-ci ilin yanvar ayından 2012-ci ilin iyul ayınadək Elvin Müdafiə Nazirliyinin Sumqayıtda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirib.

Müddətli həqiqi hərbi xidmət keçməsi Elvinin hələ məktəb illərindən rəğbət bəslədiyi hərbçi peşəsinə marağını daha da artırıb. Ona görə də ehtiyata buraxıldıqdan bir müddət sonra hərbi xidmətə qayıtmağa qərar verib. Dövlətçiliyimizin keşiyində dayanan, öz sıralarında Milli Qəhrəman Mübariz İbrahimov kimi oğullar yetişdirmiş Daxili Qoşunlarda xidmət etmək onun düşünülmüş seçimi olub. Beləliklə, 2013-cü ilin may ayının 10-dan etibarən Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb.

16073 və 67987 saylı hərbi hissələrdə xüsusi vasitələrin tətbiqi bölməsinin mənevr qrupunda baş atıcı, xüsusi təyinatlı



dəstənin atəş təminatı qrupunda heyət nəfəri, eləcə də xüsusi həmlə qrupunda atıcı vəzifələrində xidmət edərək komandanlıq tərəfindən ona göstərilən etimadı doğruldub. Funksional vəzifələrini layiqincə yerinə yetirərək, habelə döyüş və mənəvi-psixoloji hazırlığında fərqlənərək dəfələrlə mükafatlandırılıb. Təlim və məşğələlərdə əzmkarlıq göstərərək, həmçinin, ictimai təhlükəsizliyin təmin olunması üzrə müxtəlif xidməti tapşırıqların icrası zamanı gərəkli təcrübə toplayaraq peşəkar hərbi qulluqçu kimi formalaşıb. Harada xidmət edibsə, silahdaşlarının inamını və hörmətini qazanıb, qoşunların nüfuzunu uca tutub. Müharibəyədək hərbi xidmət yolunun bir sıra məqamları haqqında onun komandir və rəisləri olmuş zabitlərlə danışdım.

17072 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin müavini-qərargah rəisi mayor Rəşad Məmmədov məlumat verdi ki, 67987 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin müavini-qərargah rəisi vəzifəsində olarkən onun tabeliyində xidmət etmiş Elvin öz nizam-intizamı, yüksək peşə hazırlığı, fiziki məharəti, xidmətə can yandırması, səliqə-sahmanı, etik davranışı ilə seçilib. Birinci Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Formula-1 Azərbaycan Qran-Pri" yarışlarında və Nardaranda məlum hadisələrlə əlaqədar xidmətə cəlb edilərək qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəlib.

Suraxanı Rayon Polis İdarəsinin postpatrul bölüyü komandirinin müavini polis mayoru Natiq Allayarov bildirdi ki, 67987 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin həmlə qrupunun komandiri vəzifəsində xidmət edərkən onun tabeliyində olmuş Elvini 2015-ci ildən tanıyıb: "Vətənpərvər, yoldaşlığa dəyər verən, hərtərəfli hazırlığa malik, subordinasiya qaydalarına ciddi əməl edən, təlimlərdə çalışqan, fiziki cəhətdən güclü, hündürboy hərbi qulluqçu idi. Həmişə deyirdi ki, kaş müharibə olsun, gedib döyüşək, bu ləkəni üzərimizdən götürək. Xidməti tapşırıqların icrası zamanı o, soyuqqanlı davranıb, çevik və ayıq-sayıq olub. Asudə vaxtlarda idmanla məşğul olmağa həvəsi vardı, yaxşı səviyyədə voleybol və futbol oynayırdı".

2018-ci ilin iyun ayının 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə Bakının Azadlıq meydanında keçirilən hərbi paradda Elvin iştirak edib. O, silahdaşlarına onlarla birgə qələbə paradında iştirak etməyi arzuladığını söyləyib. Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2018-ci il tarixli müvafiq əmrinə əsasən, Elvin "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunub.

Xüsusi təyinatlı olaraq Elvin özünü daim döyüş sınağına hazırlayıb. Düşmən tapdağı altındakı torpaqlarımızı azad etmək üçün döyüş əmrinin veriləcəyi günü səbirsizliklə gözləyib.

2020-ci ilin sentyabr ayının 27-də erməni işğalçılarına qarşı başlayan 44 günlük Vətən müharibəsi zamanı ön cəbhəyə ilk göndərilən döyüşçülərin arasında Elvin də vardı. Həmin tarixdə ailəsi ilə telefon danışığı olub, doğmalarına döyüş zonasına gedəcəyi barədə heç nə deməyib. Bildirib ki, uzunmüddətli təlimlərdə olacaq. Ancaq telefon danışığında azyaşlı qızı Sevincdən muğayat olmağı qardaşından xahiş edib.

Füzuli-Cəbrayıl rayonları istiqamətində döyüş əməliyyatlarına cəlb olunan Elvin düşmənə qarşı qətiyyətlə vuruşub. Xüsusi təyinatlının döyüşçü yoldaşları onun haqqında xatirələrini mənimlə bölüşdülər.

67987 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda yarımqrup komandiri, Vətən müharibəsi iştirakçısı baş çavuş Elnur Zuliyev qeyd etdi ki, Elvini o, xüsusi təyinatlı dəstədə xidmətə başladığı vaxtdan tanıyıb. Onun öz müsbət şəxsi keyfiyyətləri ilə yoldaşlarına nümunə olduğunu, onlara öz təcrübəsindən irəli gələn məsləhətlər verdiyini, komandirlərin tapşırıqlarını sözsüz və dəqiq yerinə yetirdiyini, ictimai təhlükəsizliyin keşiyində xidmət zamanı peşəkarlıq göstərdiyini vurğuladı. Yarımqrup komandiri nəzərə çatdırdı ki, müharibədən öncə xüsusi təyinatlı bölmələrin təlimlərinə cəlb olunublar. Bu təlimlərdə Elvin atəş və fiziki hazırlığı ilə fərqlənib.

"Döyüş əməliyyatları başladıqda düşmənlə təmas xəttindəki mövqelərdə cəmləşmişdik. Erməni işğalçılarının təxribatlarına layiqli cavab verildi. Sentyabrın 30-da Lələtəpə yüksəkliyindən hücuma keçdik. Təcavüzkarın birinci müdafiə xəttini yardıq, qruplarla əsasən Arazqırağı zonada yerləşən postları nəzarətə götürdük. Erməni hərbçiləri bizim həmlələrimiz qarşısında dayana bilmədilər, bir qismi məhv edildi, qalanları geri çəkildilər. Oktyabrın 1-də düşmənin yardığımız birinci və qarşımızdakı ikinci müdafiə xətləri arasında olan yüksəklikdə mövqelənmişdik. Mövqeyimiz müxtəlif çaplı silahlardan şiddətli atəşə tutulurdu, Elvinin olduğu cinahda sursat qurtarmışdı. Onlara sursat yeşiyini çatdırarkən minaatan mərmisinin partlaması nəticəsində çavuş Hilal İmanzadə şəhid oldu, Elvin isə qolundan yüngül qəlpə yarası aldı. Oktyabrın 2-nə keçən gecə düşmən bizim mövqeyə hücuma keçsə də, geri oturduldu, əks-hücuma başlayaraq onların postlarına doğru irəlilədik. Bu hücumumuza da işğalçılar tab gətirə bilmədilər, onlara postlardan çıxmağa imkan vermədik, o gün axşamadək düşmənin ikinci müdafiə xəttindəki mövqeləri tərəfimizdən darmadağın olundu. Elvin cəsurcasına döyüşürdü, öz silahı ilə sərrast atəş açaraq ermənilərin üzərinə odalov yağdırırdı. Döyüşlərarası sakitlik yarandıqda namaz qılırdı, ibadətindən qalmır-



dı. Sonra arxada qalan qruplar da dayandığımız ərazidə cəmləşdilər, təchizatımızı nəzərdən keçirdik, növbəti tapşırığı gözlədik. Oktyabrın 3-nə keçən gecə, saat 3 radələrində tapşırıq aldıq ki, qarşıdakı yüksəkliyə doğru irəliləməliyik. Mən, Elvin və Çingiz adlı döyüşçü eyni qrupda idik. Qrupumuz öndə gedirdi, bəzi hallarda köməyə ehtiyac yarandıqda işğalçıların atəş nöqtələrini susdurmaq üçün digər qrupları da dəstək verməyə çağırırdıq. Döyüş zənciri şəklində irəliləyirdik. Cəbrayıl rayonunda ermənilərin xarabalığa çevirdikləri kəndlərdən birinə yaxınlaşmışdıq. Bu xarabalığa qədər təxminən 200 metr məsafə olardı, ermənilərin səslərini eşitdik. Düşmən havaya işıqlandırıcı fişəng atdı. Biz hərəkətsiz qaldıq ki, yerimizi bilməsinlər. Ancaq onlar bizi görmüşdülər. Şiddətli atəşə məruz qaldıq. Gecəgörmə cihazı vasitəsilə atəşin istiqamətini korrekte edirdilər. Bu vəziyyətdə cavab atəşi açaraq təcavüzkarın üzərinə hərəkəti davam etdirdik. Minaatanlardan atəşə tutulduq, həmin anda Çingiz məndən solda, Elvin isə sağ tərəfdə idi. Mərmilərdən biri Çingizin, digəri Elvinin önünə düşərək partladı. Hər ikisi yerə uzanmışdı, onları çağırdım, Çingizdən səs gəldi, Elvindən səs gəlmədi. Elə bildik ki, yaralanma və ya kontuziyanın şokundadır. Yerimizdə dayana bilməzdik, həmlələr edərək xarabalıqda mövqelənmiş düşməni məhv etdik, ətrafdakı postlar da susduruldu, ancaq snayper atəşindən yaralanan döyüşçülərimiz oldu. Döyüşdən sonra ilk minaatan mərmilərinin düşdüyü əraziyə qayıtdım, Çingiz və Elvini axtardım, Çingiz sağ qalmışdı, Elvinin isə nəşini gördüm, çox sarsıldım. Məlum oldu ki, önünə düşən mərmilərdən birinin qəlpələrindən yaralanıb, digər mərmi partladıqda isə şəhid olub".

67987 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı-istehkamçı çavuş Elton Hacıyev bildirdi ki, ön cəbhədə Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələrinin şəxsi heyəti ilə birgə vuruşublar. Müharibənin ilk günündən hərbi qulluqçularımız, o cümlədən, Elvin döyüş tapşırıqlarını mətinliklə yerinə yetiriblər. Onun sözlərinə görə, Elvinlə söhbət etdikdə o, şəhadətə ucalacağını, torpaqlarımızın işğaldan azad olunacağına inandığını deyib.

Vətən müharibəsi qazisi, ehtiyatda olan çavuş Çingiz Qədimov da Elvinin ləyaqətli silahdaş, mərd döyüşçü olduğunu nəzərə çatdırdı. Onun ruh yüksəkliyi ilə vuruşduğunu söylədi: "Hər ikimiz oktyabrın 3-də eyni anda yaralanmışıq, olduğumuz əraziyə 4 ədəd minaatan mərmisi atılmışdı, əvvəlcə o, məni səslədi, cavab verdim, sonra onu çox çağırdım, səs gəlmədi..." - deyə Çingiz bildirdi.

Beləliklə, döyüşçülərimizin verdikləri məlumata görə, Elvin oktyabrın 3-də Cəbrayıl rayonu ərazisində şəhidlik zirvəsinə ucalıb. 6 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə də həmin tarix qeyd edilib, hərbi qulluqçumuzun hərbi əməliyyatda baş beyinin travması nəticəsində həlak olduğu yazılıb, ancaq ərazi olaraq Füzuli rayonu göstərilib.

Şəhid xüsusi təyinatlı Xırmandalı kəndinin qəbiristanlığında dəfn olunub. Bu kənddən 13 nəfər Birinci Qarabağ müharibəsində şəhid olub, Vətən müharibəsində isə şəhadətə ucalan Elvindir.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15 dekabr 2020-ci il, 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamlarla çavuş E.Məmmədov ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Qeyd edim ki, Elvinin əmisi oğulları Nicat Məmmədov və Samir Məmmədov Vətən müharibəsi iştirakçılarıdır.

Mərhum döyüşçünün məzunu olduğu orta məktəbdə ona həsr olunan fotostend hazırlanıb, habelə adına sinif var, məktəbin önündə şəhid məzunların xatirəsinə abidə yaradılıb. Məmmədovlar ailəsinin yaşadığı evdə şəhidin xatirə guşəsi düzəldilib. "Qələbə şəhidləri" kitabında, dövri mətbuatda, videoçarxda şəhid haqqında məlumatlar öz əksini tapıb.

2015-ci ilin avqust ayının 16-da Elvin Nərmin xanımla ailə qurub. Yeganə övladı Sevincin 6 yaşı var. Qardaşı Rəşad polis əməkdaşıdır. Ailəsi, bütün doğmaları onun yoxluğu ilə barışa bilməsələr də, həyatını Vətən naminə fəda etmiş Elvinlə qürur duyurlar.

Məqaləni Manya Səxavətqızının Elvinə həsr etdiyi şeirdən aşağıdakı misralarla yekunlaşdırıram:

**Sonsuz ümmanları xatırladırdı**
**Sənin Vətən adlı müqəddəs sevgin.**

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

*Qazilərimiz*

# VETERAN OĞLU, MƏTİNLİK ÖRNƏYİ, VƏTƏNPƏRVƏRLİK AMALINA SƏDAQƏT

Vətən müharibəsində yaralanmış silahdaşlarımızı tanımaq və gənc nəslə tanıtmaq, sözün əsl mənasında, olduqca qürurvericidir.

Səid Həmzəyev 1991-ci il dekabrın 20-də Cəbrayıl rayonunda anadan olub. Vətənpərvər ruhda böyüyüb boya-başa çatan Səid hələ kiçik yaşlarından erməni vəhşiliyinin ağrı-acısını yaşamağa məcbur olub. Bunun əsas səbəbi erməni işğalı nəticəsində ailəliklə yaşadıqları ağır məcburi köçkünlük həyatı idi. Əslən Cəbrayıl rayonunun Mahmudlu kəndindən olan Həmzəyevlər ailəsi 1993-cü il avqustun 13-də doğma yurdunu tərk etmək məcburiyyətində qalaraq, əvvəlcə Cəlilabad rayonunun Prişib qəsəbəsinə (hazırda Göytəpə şəhəri) pənah gətirməli olub. Bir müddət burada yaşayan ailə sonradan İmişli rayonundakı vaqon düşərgəsinə, Səidin dörd yaşı olanda isə Beyləqan rayonunun Xalac kəndinə köçüb. Səid orta təhsilini Xalac kəndindəki İbadət Ələsgərov adına tam orta məktəbdə alıb. Hazırda valideynləri Beyləqan rayonunda məcburi köçkünlər üçün inşa edilmiş Xocavənd qəsəbəsində, Səid özü isə Şirvan şəhərindəki şəhərcikdə yaşayır.

Səid müddətli həqiqi hərbi xidmətini 2010-cu ilin yanvar ayından 2011-ci ilin iyul ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində keçib. Tərxis olunduqdan sonra bir müddət mülki işdə çalışsa da, hərbi xidmətə olan böyük marağı səbəbindən yenidən ordu sıralarına qayıtmağa qərar verib. Beləliklə, 2012-ci ilin iyun ayından Daxili Qoşunların 12318 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 2019-cu ilin dekabr ayından hərbi hissənin "Yarasa" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində xidmətini davam etdirən çavuş S.Həmzəyev xüsusi həmlə qrupunda atıcı-snayper kimi vəzifə borcunu şərəflə yerinə yetirib.

12318 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri polkovnik-leytenant Anar Rizvanov Səidi əsl vətənpərvər döyüşçü kimi xarakterizə edərək, dəstənin yüksək döyüş hazırlığı və hərbi intizamı ilə fərqlənən nümunəvi xüsusi təyinatlılarından biri olduğunu diqqətə çatdırdı. Bildirdi ki, Səid xidmət etdiyi dövrdə nümunəvi xidmətilə dəstənin komandir heyətinin hər zaman etimadını doğruldub və hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb. 44 günlük Vətən müharibəsi başlayanda isə Səid silahdaşları ilə birgə



böyük ruh yüksəkliyi və düşmənə sonsuz nifrət hissi ilə döyüşlərə qatılıb, öz sərrast atəşi ilə neçə-neçə erməni hərbçisini məhv edib.

Məlumat üçün qeyd edək ki, Səidin xidmət etdiyi və "Yarasa" şərti adını daşıyan xüsusi təyinatlı dəstə əvvəlcə Cəbrayıl, Füzuli rayonlarında mövqelərimizin müdafiəsində dayanıb, burada düşmənin diversiya-kəşfiyyat qruplarının qarşısının alınması üzrə döyüş tapşırıqlarını yerinə yetirib. Bir müddət sonra isə dəstənin şəxsi heyəti ayrı-ayrı qruplara bölünərək Şuşa istiqamətində gedən döyüşlərdə fəal iştirak edib.

Döyüş əməliyyatları zamanı Səid dörd dəfə düşmən artilleriyasının hədəfinə tuş gəlsə də, özünü yaxşı hiss etdiyini və sonadək vuruşmaq əzmində olduğunu bildirib. Belə ki, 2020-ci il noyabr ayının 2-də Xocalı rayonunun Sığnaq kəndinin ərazisində ermənilərin atdığı minaatan mərmisinin yaxınlığına düşməsi nəticəsində burun nahiyəsindən qəlpə yarası və partlayış travması, noyabrın 3-də isə Şuşa istiqamətində hərəkətdə olarkən iki dəfə partlayış travması almasına baxmayaraq, səhhəti ilə bağlı hər hansı bir problemin olmadığını bildirib və təxliyyə olunmaqdan imtina edib.

Qazinin bildirdiyinə görə, yaralı halda belə, noyabrın 4-də döyüşçü yoldaşları ilə birgə Laçın-Şuşa yolu istiqamətində azad etdikləri yüksəklikdə mövqelənərək, düşmənə sarsıdıcı zərbələr endirməklə, erməni işğalçılarının irəliləmələrinin qarşısını alıblar. Noyabrın 6-sı səhər vaxtı müdafiə olunduqları mövqelərin ermənilər tərəfindən uzaq məsafədən ağır artilleriya atəşinə tutulması nəticəsində Səid partlayış travması və sol ayağından qəlpə yarası alıb. Cəsur xüsusi təyinatlımız yaralanmış digər silahdaşları ilə birgə noyabrın 7-də axşamüstü təxliyyə olunduqlarını dedi: "Əvvəlcə Hadrut qəsəbəsində yerləşən tibb məntəqəsində bizə ilkin tibbi yardım göstərildi. Ardınca Füzuli Rayon Xəstəxanasına, burada bir gün qaldıqdan sonra Neftçala Rayon Xəstəxanasına göndərildim. Bir müddət sonra, noyabrın 12-də tam müalicə olunmağım üçün Daxili Qoşunların Hərbi Qospitalına gətirildim. Həkimlərimizin sayəsində sağlamlığım qismən bərpa edilib. Lakin tam sağalmağım üçün ambulator müalicəmi bu gün də davam etdirirəm".

Döyüş sınağını yaşamış Səid sıralarımızdan tərxis olunaraq Silahlı Qüvvələrə ehtiyata buraxılıb. Qazimizin atası Arif Həmzəyev Birinci Qarabağ müharibəsi veteranıdır. Daxili Qoşunların veteranı olan qardaşı Kamran Həmzəyev isə ehtiyatda olan baş çavuşdur.

2013-cü ildə ailə həyatı quran Səidin Səma adında bir qız övladı var. Vətən qarşısında müqəddəs borcunu şərəflə yerinə yetirən qazimizə bundan sonrakı həyatında uğurlar arzulayırıq.

**mayor Anar Əhmədov**

4_Layout 1 13.07.2022 13:01 Page 1



# HƏRBİ QULLUQÇULARIN HƏRBİ-VƏTƏNPƏRVƏRLİK, ÜMUMBƏŞƏRİ DƏYƏRLƏR RUHUNDA TƏRBİYƏ OLUNMASI VACİB ŞƏRTDİR

Şəxsi heyətin asudə vaxtının səmərəli keçirilməsi, xidmətə yeni başlayan hərbi qulluqçuların əsl vətəndaş kimi formalaşması, eləcə də vətənpərvər ruhda tərbiyə edilməsi Daxili Qoşunların bütün hərbi hissələrində olduğu kimi, 25033 saylı hərbi hissədə də daim diqqətdə saxlanılır. Bu baxımdan şəxsi heyətin xidmət apardığı rayonun muzeyləri və tarixi abidələri ilə yaxından tanış olması üçün gəzintilər təşkil edilir.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Surxay Gülməmmədov bildirdi ki, Vətənimizin qədim tarixini, o cümlədən, igid sərkərdələrimizin qəhrəmanlıqla zəngin həyat və fəaliyyətini dərindən öyrənmək, sözsüz ki, hər bir əsgərin mənəvi borcudur. Hərbi qulluqçuların hərbi-vətənpərvərlik, ümumbəşəri dəyərlər və Azərbaycan xalqının qədim milli adət-ənənələri ruhunda tərbiyə olunması məqsədilə belə tədbirlərin keçirilməsi böyük əhəmiyyət kəsb edir.

25033 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən belə tədbirlərin təşkilində iştirak etdim. Polkovnik-leytenant S.Gülməmmədov və hərbi hissənin tərbiyə işləri üzrə bölməsində mütəxəssis gizir Orxan İbrahimovun rəhbərliyi ilə müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının gəzintisi üçün ayrılmış avtobus ilk olaraq Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzinə doğru istiqamət aldı.






Hərbi qulluqçulara Ümummilli Lider Heydər Əliyevin şərəfli və mənalı ömür yolunu əks etdirən fotoşəkillər, sənədlər, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Lənkəran şəhərinə səfərlərinə aid fotoşəkillər nümayiş etdirildi və 44 günlük Vətən müharibəsində iştirak edən Vətən oğullarının doğma el-obaya sədaqəti, mərdliyi və mətinliyi haqqında danışıldı.

Sonra şəxsi heyət mərkəzin foyesində Vətən müharibəsində qəhrəmancasına şəhid olan "Qarabağ" ordenli Orxan Quluzadənin şəxsi əşyalarından ibarət sərgi ilə tanış oldu.

Heydər Əliyev Mərkəzindən sonra şəxsi heyətin növbəti ekskursiyası Lənkəran Tarix-Diyarşünaslıq Muzeyinə oldu.

Muzey haqqında hərbi qulluqçulara geniş məlumat verildi. Qeyd olundu ki, Xan



evi kimi tanınan bu nadir bina Lənkəran xanı Mirəhməd xan tərəfindən həyat yoldaşı Tuğra xanımın şərəfinə inşa edilib. Bina fransız memarları tərəfindən layihələndirilib, tikinti işləri onların rəhbərliyi ilə xarici və yerli ustalar tərəfindən aparılıb. Tikinti materialları isə Bakıdan gəmi ilə daşınıb. Xan evinin tikintisində Şərq və Qərb memarlıq üslubundan istifadə edilib, kərpic və ağ daş materiallarına üstünlük verilib. Üçmərtəbəli saray Lənkəranın ilk çoxmərtəbəli binası sayılır. Bina 12 otaqdan ibarətdir. Sahəsi 812 kvadratmetr olan Xan evi 1913-cü ildə Lənkəranda ilk dəfə xüsusi elektrik qurğusu quraşdırılmaqla elektrik enerjisi ilə təmin edilib. 1978-ci ildən Xan evi Lənkəran Tarix-Diyarşünaslıq Muzeyi kimi fəaliyyətə başlayıb.

Şəxsi heyət muzeydəki tarixi eksponatlarla tanış oldu. Bildirildi ki, hazırda muzeydə Lənkəranın zəngin tarixini, mədəniyyətini, adət-ənənələrini əks etdirən 6 mindən çox tarixi eksponat qorunub saxlanılır. Burada arxeoloji qazıntılar zamanı tapılmış daş dövrünə aid sümükdən hazırlanmış bıçaqlar, həvəngdəstə, çəkiclər, tunc dövrünə aid silahlar və qadın bəzək əşyaları, VII–XII əsrlərə aid, heç vaxt rəngi solmayan boyalı saxsı qablar, qoç fiqurlu qəbir daşları, həmçinin, VIII–IX əsrlərə aid memarlıq abidəsi - Bəlləbur qalasının tikinti materialları nümunələri, qaladan tapılmış məişət əşyaları xüsusi maraq doğurur. Ekspozisiyada nümayiş etdirilən misgərlik nümunələri, əmək və məişət əşyaları da orta əsrlərə aiddir. Muzeyin qədim eksponatlarından olan mis manqal XIX əsrə aiddir və evi qızdırmaq üçün istifadə olunurdu. Bu manqal cızma naxışlarla bəzədilib. Gümüşdən hazırlanmış bəzək əşyaları, kəmər və toqqa, etirqabı Lənkəran zərgərlərinin əl işləridir.

2013-cü ilin sentyabr ayında ümumilikdə, 10 şöbədən ibarət olan muzey binasının əsaslı təmirinə başlanılıb. Mədəniyyət Nazirliyi yanında Mədəni irsin qorunması, inkişafı və bərpası üzrə Dövlət Xidməti tərəfindən inşaat işləri yüksək səviyyədə aparılıb, 2015-ci ilin aprel ayında aparılan yenidənqurma və bərpa işlərindən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Lənkəran Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak edib.

Hərbi qulluqçular muzeydən xoş təəssüratlarla ayrıldılar.

**kapitan Xədicə Hacızadə**

# ŞƏXSİ HEYƏTİN NORMAYA UYĞUN KEYFİYYƏTLİ QİDALANMASI DİQQƏT MƏRKƏZİNDƏDİR

Daxili Qoşunlar komandanlığının əsas diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlığının qorunması və səhhətinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan da asılıdır.

17074 saylı hərbi hissədə ərzaq xidmətinin rəisi kapitan Fərman Əhmədxanov şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, Daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi.



Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.



Daxili Qoşunlarda uzun müddət müxtəlif hərbi hissələrdə xidmət edən kapitan F.Əhmədxanov şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri qida rasionuna daxildir. Xüsusilə qış mövsümündə kəskin respirator xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə şəxsi heyətin qida rasionuna soğan, sarımsaq kimi faydalı tərəvəzlər əlavə olunur. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən təşkili də bildirdi. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır.

Kapitan F.Əhmədxanov görülən işlərdə yeməkxana rəisi baş gizir Elvin Sadıqovun əməyini xüsusilə vurğuladı. Onun qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiyini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün öz əməyini əsirgəmədiyini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında kurs keçmiş ixtisaslı əsgər aşpazlarla yanaşı, mülki işçi - aşpazlardan Xacay Qiriyeva və Xanım Canayevanın fəaliyyətini də müsbət xarakterizə etdi.

**kapitan Şahin Cəfərzadə**

*NÜMUNƏVİ XİDMƏT*

# İNTİZAMLI VƏ MƏSULİYYƏTLİ HƏRBİ QULLUQÇU

19 ildir ki, Daxili Qoşunların sıralarında hərbi xidmət keçən baş çavuş İlqar Adıgözəlov, ilk günlərdə olduğu kimi, bu gün də məsuliyyətlə, vicdanla vəzifələrini icra edir. Hər zaman seçdiyi peşəylə fəxr edən hərbi qulluqçu bu illər ərzində bir dəfə də olsun vəzifələrinin icrasına səthi yanaşmayıb.



O, 1985-ci ilin yanvar ayının 15-də Hacıqabul rayonunda anadan olub. Hacıqabulda yerləşən İlqar Ələkbərov adına 1 saylı tam orta məktəbin məzunudur. 2003-2004-cü illərdə Daxili Qoşunların 17074 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Əsgəri xidmətini başa vuran gənc artıq öz həyatını hərbi xidmətlə bağlamağı yəqinləşdirmişdi. Elə bu istəklə 2004-cü ildə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Belə ki, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi ilk olaraq 17074 saylı hərbi hissədə döyüş təminatı bölüyünün əlahiddə kimya manqasının komandiri vəzifəsinə təyin edilib.

Hazırda 12318 saylı hərbi hissənin tibb xidmətinin tibb məntəqəsində sanitar təlimatçı-dezinfektor vəzifəsində xidmətini ləyaqətlə davam etdirir. Uzun illərdən bəri bu sahədə fəaliyyət göstərən hərbi qulluqçu artıq peşəkarlıq vərdişlərinə yiyələnib.

Tibb xidmətinin rəisi tibb xidməti kapitanı Emil Fərmanlı tərəfindən müsbət xarakterizə olunan baş çavuş İ.Adıgözəlov, sözün əsl mənasında, çalışqandır. Hərbi hissənin təyinatına uyğun fəaliyyət göstərən tibb məntəqəsində verilən bütün tapşırıqların icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçumuz xidmətdə təşəbbüskarlığı ilə seçilir. Xidməti dövründə sadəliyi, təvazökarlığı ilə fərqlənən hərbçimiz silahdaşlarına örnək olmağı bacarıb.

Seçdiyi bu şərəfli yolda heç zaman peşmançılıq hissi keçirmədiyini nəzərimizə çatdıran baş çavuş İ.Adıgözəlov xidmətilə fəxr etdiyini, fəaliyyətində istənilən çətinliyə dözməyə hazır olduğunu xüsusi vurğuladı.

**baş leytenant**
**Nigar Ağayeva**

# FUNKSİONAL VƏZİFƏLƏRİNİ VİCDANLA YERİNƏ YETİRƏN XƏTT NƏZARƏTÇİSİ

25033 saylı hərbi hissənin təminat bölüyünün rabitə taqımında xətt nəzarətçisi əsgər Roman Cəfərov 2003-cü ilin dekabr ayının 13-də Sabirabad rayonunun Cəngən kəndində anadan olub. Doğulub boya-başa çatdığı Cəngən kəndində yerləşən tam orta məktəbi 2021-ci ildə bitirib. 2022-ci ilin yanvar ayında müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların sıralarına qəbul olunub.



Funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçumuz ona verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirir. Rabitənin normativ sənədlərdə tələb edilən keyfiyyətdə, bütün məlumatların ötürülməsinə hazır vəziyyətdə olmasını təmin edir, sənədli məlumatları ötürür, telefon rejimində danışıqlar zamanı gecikmə və pozuntular olarsa, onları dərhal aradan qaldırır. O, məxfilik rejiminə və rabitənin təhlükəsizlik tədbirləri üzrə tələblərinə ciddi riayət edir.

Daxili Qoşunlarda xidmətilə fəxr edən əsgər R.Cəfərov hər bir hərbi qulluqçunun komandirlər tərəfindən qarşıya qoyulan tapşırıqları dəqiqliklə yerinə yetirməsinin vacibliyini vurğuladı, rabitəçilərin hazırlığına diqqətin artırıldığını söylədi.

Hərbi qulluqçumuzun dayısı - hərbi hissənin xüsusi təyinatlı dəstəsində xüsusi həmlə qrupunun heyət nəfəri vəzifəsində xidmət etmiş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İsmayıl Məmmədov 2020-ci ilin noyabr ayının 6-da Şuşa istiqamətində aparılan döyüş əməliyyatları zamanı qəhrəmancasına vuruşaraq, şəhidlik zirvəsinə ucalıb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin imzaladığı müvafiq sərəncamlarla ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Əsgər R.Cəfərov Vətən torpaqlarının azadlığı uğrunda canını qurban verən dayısı ilə qürur duyduğunu, daim onun şəhid adına layiq olacağını bildirdi.

**kapitan Xədicə Hacızadə**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Almaniyanın KF41 "Lynx" PDM-nə "Spike" tank əleyhinə raketləri inteqrasiya edilib



Almaniyanın "Lynx" ən son model piyadaların döyüş maşını (PDM) müştərinin tələblərinə uyğun olaraq müxtəlif silahlarla təchiz oluna bilər. "Poliqon" xəbər verir ki, "Rheinmetall" şirkəti "YouTube" kanalında KF41 "Lynx" PDM-ə inteqrasiya olunmuş "Spike" tank əleyhinə idarə olunan raketlə (TƏİR) hədəfin vurulmasının videosunu yayımlayıb.

Bildirilib ki, sınaqları uğurla başa vurduqdan sonra "Rheinmetall" şirkəti sifariş edilərsə, yeni tırtıllı PDM-i belə müasir TƏİR-lərlə təchiz etməyə hazırdır.

Qeyd edək ki, KF41 "Lynx" PDM üç heyət üzvü və doqquza qədər desant da daxil olmaqla 12 nəferi daşıyır.

"Lynx" heyəti atəş, minalar, əldəqayırma partlayıcı qurğular və TƏİR-lər də daxil olmaqla müxtəlif təhlükələrdən qoruyur.

## Allah rəhmət eləsin

16077 saylı hərbi hissənin şəxsi heyəti baş leytenant Məhəmməd Əkbərliyə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**

**Redaktor: Anar Əhmədov**

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**